Azərbaycan.- 2021.- 17 aprel. S. 5.

# "Yaşıl Marafon" kampaniyası davam edir

**Dünən IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində növbəti ağacəkmə aksiyası keçirilib. Binəqədi rayonunun Xocasən qəsəbəsində baş tutan budəfəki aksiyaya İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əməkdaşları da qoşulublar.**

Bu barədə AZƏRTAC-a dövlət agentliyindən bildirilib. Yuxarıda adıçəkilən dövlət qurumlarının əməkdaşlarının, IDEA İctimai Birliyinin könüllülərinin iştirakı ilə 1 hektar ərazidə 400-dən çox zeytun və Eldar şamı ağacları əkilib. Ağacəkmə aksiyasında ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev də iştirak ediblər.

Tədbir zamanı "Yaşıl Marafon" kampaniyasının əhəmiyyətindən bəhs edən Zaur Əliyev bildirib ki, sağlam həyat tərzi üçün ekoloji təmiz mühitin yaradılması müasir dövrdə ən önəmli və aktual məsələlərdən biridir: "Bu kimi layihələr sayəsində həm təbiətin qorunmasına, həm də insanların sağlamlığı üçün zəruri olan ekoloji baxımdan təhlükəsiz və təmiz şəraitin yaradılmasına töhfə verilir".

Yaz və payız ağacəkmə mövsümlərində ölkə üzrə 1 milyona yaxın ağac əkilməsini hədəfləyən layihə tərəfdaşları hər kəsi bu faydalı təşəbbüsə dəstək olmağa və təbiətimizin yaşıl gələcəyi naminə birləşməyə çağırır.